***Keçmişimizdə baş verənlərin real faktlara əsaslanaraq, doğru-düzgün işıqlandırılması problemi bütün bəşəriyyəti düşündürən zəruri məsələlərdəndir. Yəqin ki, ilk baxışdan bəzilərinə sadə görünən bir faktı, hər hansı bir xalqın dövlətçilik mədəniyyəti və mənəviyyat tarixi, əslində, onun ümumi tarixidir desək, səhv etmərik. Bu mənada dünya istər Şərq, istərsə də Qərb tarixini, dövlət quruculuğumuzu, ərazimizə edilən təcavüzləri, xalqımıza qarşı törədilən soyqırımlarını, terrorları, deportasiyaları, bəşəriyyət əleyhinə cinayətləri, düşüncə və məfkurə keçmişimizi öyrənən hər kəs həmin böyük məcraya bu və ya başqa şəkildə baş vurmalıdır ki, araşdırılan problemlərdə reallığı üzə çıxara bilsin. Qeyd etməliyik ki, indiyə qədər tanınmış tarixçilərimiz Vətən tarixinə aid, məxsusi olaraq Qarabağ problemi ilə ilgili elmi-tədqiqat işləri aparmış, samballı əsərlər yazaraq, onları geniş oxucu auditoriyasına təqdim etmişdir.***

***Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi şəkildə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir...***

***Heydər ƏLİYEV***
***Ümummilli lider***



# Xocalı soyqırımına aparan yola SİYASİ-TARİXİ BAXIŞ

Lakin bütün bunlara baxmayaraq, ermənilərin zaman-zaman ümumən türklərin, xüsusilə Azərbaycan xalqına qarşı törədilən insanlıq əleyhinə cinayətlərin sayı-hesabı o qədər ölçüyəgəlməzdir ki, onların hamısını, təbii ki, nəşr olunan mənbələrdə tam əhatə etmək mümkün deyildir. Nəticədə belə bir vəziyyətin yaranması, yəni xalqımızın həyatında baş verən digər tarixi faciələrdən hələ də gənc nəslin eləcə də dünya ictimaiyyətinin lazımi səviyyədə məlumatı olmur. Düşünürəm ki, təbii olaraq belə bir zərurət yaranır ki, bu günün ziyalıları, alimləri tarixi fəlakətlərimizi yazmaq, təfsilatı ilə gələcək nəslə çatdırmaq üçün öz vətəndaşlıq borcunu yerinə yetirməlidir. Bəllidir ki, sovet dönəmində bu yönümdə elmi-tədqiqat işlərinin aparılması mümkünsüz olmuşdur. Çünki bu rejim hadisələri pərdələməklə ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən insanlıq əleyhinə cinayətlər barədə məlumatsızlıq yaradaraq xalqımızın keçmişində baş verənləri üzə çıxarmamaq məqsədi daşımışdır.

Heç vaxt dövləti və dövlətçilik tarixi olmayan, dünyanın müxtəlif bölgələrinə səpələnmiş, köçəri həyat tərzi keçirən ermənilər "Böyük Ermənistan" yaratmaq üçün bəşəriyyət əleyhinə cinayət yolu olan seperatizmi və terrorizmi seçdilər. Buna nail olmaq üçünsə strategiyanın ilkin mərhələdə nəzərdə tutulan gizli fəaliyyət planını reallaşdırmağa başladılar. Məhz həmin gizli fəaliyyətin nəticəsi idi ki, müxtəlif illərdə çoxsaylı erməni təşkilatları yaranmışdır. Bu təşkilatların yaranmasını etiraf edən erməni müəllifi J.Sarkisyan hələ XIX əsrin 60-70-ci illərində xeyli sayda erməni cəmiyyət və təşkilatının yarandığını açıq şəkildə qeyd edir. Gizli erməni cəmiyyətləri aşağıdakı kimi sıralanır: – 1860-ci ildə Kilikiyanın müstəqilləşməsi üçün qurulan "Xeyriyyə cəmiyyəti", Fədakarlar cəmiyyəti, 1866-cı il 7 mayda İstanbulda "Ser" (sevgi) cəmiyyəti yaradıldı. Bu son lojasının parolu "birlik, sevgi, təhsil, iş, özgürlük" idi. Araratyan (1876, İstanbul), "Məktəb sevərlər" (1870, İstanbul), Şərq (1879, İstanbul), "Kilikiya" (1879, İstanbul);- Bu cəmiyyətlər 1880-cı ildə "Erməni Birləşmiş Cəmiyyəti" adlı adı altında birləşmişdilər. "Silahlanmışlar cəmiyyəti" (1880, Ərzurum), "Qadınlar cəmiyyəti" (1880, Ərzurum), "Qurtuluş üçün birlik" (1872, Van), "Ana Vətən müdafiəçisi" (1881, Ərzurum);

Gizli erməni cəmiyyətləri haqqında qənaətlərimizi bir qədər də genişləndirməyə çalışaq. Onların yaradılmasında əsas məqsədlərə diqqət yetirək. Məsələn, onlardan biri, "Qara Xaç Cəmiyyəti" 1872-ci ildə Vanda təşkil olunmuşdu. Bu cəmiyyətlərin məqsədi milli mənafelərə nail olmaq, gənclərin silahlandırılması və silahlı üsyanların təşkil edilməsi idi.

Məhz həmin prosesin məntiqi davamı kimi 1880-ci ildə Ararat, Şərq, Mühübbi maarif, Kilikiya dərnəkləri "Miyasiyal Anikerutiun Hayotes" adlı cəmiyyətdə birləşdilər. Əsl inqilabçı komitələr 1880-ci illərdən meydana çıxmağa başladı. O vaxt Ərzurumda "Silahlılar dərnəyi" quruldu. Dərnəyin üzvü olan gənclər lazım gəldikdə istifadə etmək üçün silah daşımalıydılar. Lakin bütün təşkilatı məsələlər nə qədər ardıcıllıqla təşkil olunsa da, 1883-cü ildə bir neçə üzvü tutulduğu üçün həmin dərnək dağıldı.

Məxsusi olaraq qeyd etmək lazımdır ki, inqilabçı partiya kimi yaranan ilk təşkilat isə "Armenakan" olmuşdur. Yəni, 1885-ci ildə yaradılmış və "Armeniya" qəzetinin adı ilə adlandırılmış bu cəmiyyət inqilab yolu ilə ermənilərin özünüidarəsinə nail olmağı qarşısına məqsəd qoymuşdu. Partiyanın əsasını Van mənşəli erməni Portağalyan qoymuşdu.

Təbii olaraq həmin prosesi həyata keçirməyin əsas vasitələrindən biri təbliğat idi. Məhz bunu nəzərə alan "Armenakan" məqsədinə çatmaq üçün əhali içərisində geniş millətçi təbliğat aparmağı, hərbi təhsil verməyi, silahlı dəstələr təşkil etməyi, sonra Avropa dövlətlərinin münasibəti əlverişli olardısa, Türkiyə əleyhinə çıxış etməyi lazım bilirdi. Bu partiyanın fəaliyyəti Qafqazdakı Rusiya hakimiyyət orqanları tərəfindən şirniklәndirilirdi. Lakin "Armenakan" erməni əhalisinin geniş dairələrini cəlb edə bilmədi və onun fəaliyyəti yalnız Türkiyənin bir neçə Şərq vilayəti ilə məhdudlaşdı. Daha fəal və daha kütləvi "Hnçak" və "Daşnaksütyun" partiyalarının meydana gəlməsi ilə "Armenakan"ın nüfuzu heçə endi.

İllər keçdikcə, yəni "Hnçak" (Zəng) partiyası 1887-ci ildə Cenevrədə Avetis Nazarbekyan və millətçi erməni tələbə mühacirləri tərəfindən təşkil edilmişdi. Partiyanın lideri A.Nazarbekyan (Lorents) K.V.Plexanovun təsiri altında idi. Partiyanın 1898-ci ildə nəşr edilmiş proqramında sosial-demokrat prinsipləri bəzi gizli məqamlar qorunmaq şərtilə yalnız bəzi "xeyirxah məqsədlərə" bəyan olunurdu. Həmin proqramın məqsədlərindən birinə diqqət yetirməklə bunu aydın şəkildə görmək olar. Məsələn, proqramın bəzi məqsədlərinin tam açıqlanmadığı ikinci bölməsində erməni millətinin vəziyyəti (başlıca olaraq Rusiyada yaşayan ermənilərin) təsvir olunur, partiyanın məqsədinin çevriliş təşkil etmək olduğu göstərilirdi. Məgər bu amil terror vasitəsilə məqsədə çatmağa təhrik deyildirmi? Proqramın üçüncü bölməsində belə bir tezis irəli sürülürdü ki, guya Türkiyə tədricən dağılacaqdır, buna görə də partiyanın inqilabı fəaliyyəti ilk növbədə türk hakimiyyətinə qarşı yönəldilməli, ermənilərin milli müstəqilliklərinə nail olunmalıdır. Daha doğrusu, "Hnçak" yaxın məqsədə çatmağın yolunu üsyanla, yəni zorakılıqla "Türkiyə Ermənistanı"ndakı vəziyyəti dəyişmək, bütün erməniləri üsyana qaldırıb, Türkiyəyə qarşı müharibəyə başlamaqda görürdü. Bu tezisin mahiyyətindən açıq – aydın görünür ki, hakimiyyəti zorla ələ keçirmək üçün terror vasitələrindən istifadə strateji məqsəddir.

Davamlı olaraq bir-birini tamamlayan, planlı şəkildə yaradılan, ermənilərin ən qanlı təşkilatlarından olan "Daşnaksütyun" və ya "Erməni inqilabı cəmiyyətləri federasiyası" isə 1890-cı ildə Qafqazda təşkil edilmişdir. Partiyanın liderləri X.Mikelyan, S.Zavaryan, Rostom (St. Zorin) və başqaları idi. Həmin partiyanın mətbu orqanı isə Cenevrədə çıxan "Droşak" qəzeti idi. Rusiya Daxili İşlər Nazirliyi Polis Departamentinin bir podpolkovniki tərəfindən 1908-ci ildə tərtib edilmiş "daşnaklar" adlı məruzədə sənədlər əsasında partiyanın yaranması, fəaliyyətinin əsas istiqamətləri xarakterizə edilir. Tərtibatçı yazır ki, 1892-ci ildə Cenevrədə "Daşnaksütyun"un I qurultayı keçirilmişdir. Qurultayda "demokratik erməni respublikasını" yaratmaq üçün erməniləri silahlandırmaq və təşkil etmək, terrorçuluq aktlarını həyata keçirmək və hökumət idarələrini dağıtmaq qərara alınmışdır. Bu partiyanin məramı da beləcə bəlli olur.

Beləliklə də Azərbaycan ərazilərində ermənilərin məskunlaşdırılması prosesi ilə paralel olaraq separatizmə, terrora, soyqırımlara və təcavüzlərə hazırlıq erməni siyasətinin tərkib hissəsi olmuşdur. Yəni, qeyd olunanlardan aşkar şəkildə görünür ki, xarici qüvvələrin köməkliyi ilə dövləti, dövlətçilik tarixi olmayan ermənilər üçün strateji planlar hazırlanmışdır ki, məhz həmin strategiya zama-zaman həyata keçirilərkən türksoylu xalqlar, məxsusi olaraq Azərbaycan xalqı dəhşətli soyqırımlarına məruz qalmışdır.

Sadalanan reall faktların aşkarlanmasında son dövrlərdə baş verən ictimai-siyasi hadisələrlə əlaqədar Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsinin mühüm rolu olmuşdur. Yəni, 1991-ci il 18 oktyabr tarixində Müstəqillik Haqqında Konstitusiya Aktının qəbulu ilə bağlı xalqımıza qarşı törədilən cinayətlərin öyrənilməsinə imkan və şərait yaranmışdır. Belə bir mühitin yaranmasında təbii olaraq ümummilli liderimiz Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi deportasiyası haqqında", 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı", "Xocalı soyqırımı" haqqındakı fərmanlarını çox qiymətli və tarixi addım kimi dəyərləndirmək lazımdır.

Adıçəkilən fərmanlarda haqlı olaraq göstərilir ki, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, yəni min illər boyu yaşadıqları öz doğma tarixi etnik torpaqlarından didərgin salınaraq, kütləvi qətl və qırğınlara məruz qalmış, onlara məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

Zənnimizcə, bir qədər əvvəlki tarixə müraciət edərək terrora, təcavüzə gələn yola qismən də olsa aydınlıq gətirməyə çalışdıq. Lakin, həmin soyqırımların hansı metodlarla, vəhşiliklərlə həyata keçirilməsinə diqqət yetirə bilmədik. Ona görə də azərbaycanlıların soyqırımı məsələlərinə bir daha aydınlıq gətirməyə çalışaq. Bu, həm soydaşlarımız, həm də dünya ictimaiyyəti üçün problemin öyrənilməsi baxımından önəmli olar. Həmçinin bundan xalqımıza qarşı törədilən həmin cinayətlərin beynəlxalq müzakirələr predmetinə çevrilən məqamlarında əsas dəlil və sübutlar kimi istifadə edilə bilər. Ermənilərin Azərbaycan xalqına qarşı istifadə etdikləri vasitələr separatizm, terror, təcavüz, psixoloji terror və s. vasitələr olmuşdur.

Sadalanan metod və vasitələrdən bəşəriyyət əleyhinə cinayətlər törədən ermənilər zaman-zaman azərbaycanlılara qarşı soyqırımı həyata keçirməklə məqsədlərinə nail olmuşlar. Məsələn, bir erməni terroruna müvafiq şərait yaradan separatçı ideyaların yer aldığı azərbaycanlıların soyqırımının təşkilatçısı S.Şaumyanın 1906-cı il iyunun 7-də dərc etdirdiyi "Son hadisələr" adlı məqaləsində 1905-ci il erməni-müsəlman qırğınlarına istinadən Şuşanın, İrəvanın, Qarsın və Sürməlinin adını çəkərək, guya bu yerlər onun yurduymuş kimi qeyd edir ki, "Bədbəxt diyarımız cəhənnəmə döndərilmişdir və hələ kim bilir, bundan sonra onu nə kimi fəlakətlər gözləyir".

*(ardı var)*

***Habil HƏMİDOV,***
***Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun müasir siyasətin fəlsəfəsi şöbəsinin aparıcı elmi işçisi***